# "Qlobal münaqişələrin həllində Prezident İlham Əliyevin məsləhətləri və tövsiyələri nəzərə alınır"

**Azərbaycan beynəlxalq münasibətlər sistemində çoxşaxəli və balanslaşdırılmış siyasət yürüdərək həm regional, həm də qlobal miqyasda etibarlı tərəfdaş kimi tanınır. Bu siyasətin əsas məqsədi müxtəlif coğrafi və siyasi bloklar arasında balans yaratmaqla ölkənin milli maraqlarını qorumaq və beynəlxalq nüfuzunu gücləndirməkdir. Hətta aralarında ziddiyyətlər olan ölkələrlə Azərbaycan münasibətləri qarşılıqlı fayda əsasında qoruyur. Bununla da ölkəmiz geosiyasi rəqabət meydanında körpü rolunu oynayır.**



Milli Məclisin deputatı Pərvanə Vəliyeva qəzetimizə açıqlamasında bildirib ki, Prezident İlham Əliyevin son günlər müxtəlif coğrafiyaları əhatə edən beynəlxalq və regional tədbirlərdə iştirakı diversifikasiya olunmuş xarici siyasətin təzahürüdür: "Prezidentin şəxsi nüfuzunun, ona olan ehtiramın, onun beynəlxalq dialoqlarda fəal iştirakının diplomatik münasibətlərimizdə böyük rolu var. Dövlətimizin başçısı dünya liderləri sırasında, dünyanın ən uzunmüddətli münaqişələrindən birinin həlli yolunda ən önəmli mərhələ olan razılaşmanın imzalanacağı sammitə dəvət alıb. ABŞ Prezidenti Donald Tramp Prezident İlham Əliyevə xüsusi rəğbət bəsləyir və onu tədbirə dəvət edib. Azərbaycan artıq öz ərazisində münaqişəyə son qoyub, sülhpərvər ölkə kimi tanınıb. Regionda yeni mərhələ, yeni reallıq yaradıb. İndi isə qlobal təhlükəsizlik və sabitliyə töhfə verir. Azərbaycan artıq regional oyunçudan qlobal məsələlərlə məşğul olan etibarlı tərəfə çevrilir".



Deputat qeyd edib ki, qlobal münaqişələrin həllində Prezident İlham Əliyevin məsləhətləri və tövsiyələri nəzərə alınır, dövlətimizin başçısının təcrübəsindən faydalanırlar: "Misirin Şarm-əl-Şeyx şəhərində keçiriləcək Yaxın Şərq Sülh Sammiti çoxdandır sülhü gözləyən müharibədə razılaşma ehtimalı böyük olan, məhdud sayda dövlət, hökumət başçılarının iştirakı ilə baş tutub. Sammitin məqsədi Qəzza zolağında müharibəyə son qoymaq, Yaxın Şərqdə sülh və sabitliyə nail olmaq üçün səyləri artırmaq və regional təhlükəsizlik və sabitliyin yeni dövrünü açmaqdır. Çox qürurlu faktdır ki, Prezident İlham Əliyev bu mötəbər sammitdə iştirak edir.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

Azərbaycan.- 2025.- 14 oktyabr (№220).- S.5.